Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)



# SÜNİ İNTELLEKT VƏ İNSAN HÜQUQLARI: NƏLƏRİ BİLMƏLİYİK?

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

Çap vəsaiti dövlət qurumlarının, özəl şirkətlərin və vətəndaşların süni intellektin insan hüquqlarına təsiri sahəsində məlumatlandırılması üçün nəzərdə tutulmuşdur. Məqsəd hədəf qruplarını maarifləndirmək, potensial riskləri izah etmək və hüquqların qorunması istiqamətində düzgün yanaşmaların formalaşdırılmasına töhfə verməkdir.

# SÜNİ İNTELLEKT NƏDİR?

Süni intellekt (Sİ) - insan zəkasının öyrənmə, məntiqi mühakimə yürütmə və özünü təkmilləşdirmə kimi funksiyalarını maşınlar və proqram təminatları vasitəsilə simulyasiya edən kompleks texnologiya sahəsidir.

# Sİ-NİN TƏTBİQİ ZAMANI HANSI PRİNSİPLƏRƏ RİAYƏT EDİLMƏLİDİR?

- ✓ **İnsan yönümlülük və ictimai fayda:** Sİ texnologiyaları inklüzivliyin gücləndirilməsi, sosial rifahın yaxşılaşdırılması və davamlı inkişaf məqsədlərinə xidmət etməlidir;
- ✓ **Hüquqi və etik uyğunluq:** Sİ sistemləri qanunun aliliyi, insan hüquqları və demokratik dəyərlərə uyğun şəkildə hazırlanmalı və tətbiq edilməlidir;
- ✓ **Şəffaflıq və məlumatlılıq:** İnsanların süni intellekt əsaslı nəticələri (qərarları) başa düşmək və lazım gəldikdə onları mübahisələndirmək imkanına malik olmaları üçün onlar

süni intellekt sistemləri barədə, habelə bu sistemlərin onların hüquq və vəzifələrinə necə təsir etməsi barədə məlumatlandırılmalıdırlar;

✓ **Etibarlılıq və təhlükəsizlik:** Sİ sistemləri texniki baxımdan sabit, etibarlı və təhlükəsiz olmalı, onların fəaliyyəti davamlı olaraq monitorinq edilməli və potensial risklər idarə olunmalıdır;

✓ **Hesabatlılıq və məsuliyyət:** Sİ sistemlərini hazırlayan, tətbiq və istismar edən subyektlər bu sistemlərin düzgün işləməsinə görə hüquqi və etik məsuliyyət daşıyırlar.

## Sİ İNSAN HÜQUQLARINA MÜNASİBƏTDƏ HANSI SAHƏLƏR ÜZRƏ RİSKLƏR YARADA BİLƏR?

- **Şəxsi həyatın toxunulmazlığı, qanunla əldə olunmasına məhdudiyyət qoyulan məlumatların mühafizəsi:** Sİ sistemlərinin böyük həcmdə məlumatları emal etməsi fərdi, habelə qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların qorunması ilə bağlı risklər yaradır. Bu baxımdan məlumatların qanuni əsaslarla toplanması və emalı zəruridir;

- **Bərabərlik hüququnun təmin edilməsi:** Sİ-nin əvvəlki dövrlərdə hazırlanmış məlumatlara əsaslanmaqla təhlil aparması müəyyən sosial qruplara qarşı dolayı ayrı-seçkilik hallarına gətirib çıxara bilər;

- **İnformasiya əldə etmək hüququ:** Sİ -nin tətbiqi açıq məlumatlara əlçatanlığın məhdudlaşmasına (məlumatların filtrlənməsi) və senzuraya, dezinformasiyaya (saxta xəbərlər və "deepfake" məzmunlu məlumatlarla düzgün informasiyaya çıxışın çətinləşdirilməsi), alqoritmik qərəzə və digər neqativ hallara səbəb ola bilər;

- **Əmək hüququ və məşğulluq:** Sİ -nin geniş tətbiqi bəzi sahələrdə iş yerlərinin ixtisarına, əmək bazarında struktur dəyişikliklərinə və işçi hüquqlarına mənfi təsirlərlə bağlı risklər yarada bilər;

- **Təhsil hüququ:** Sİ-dən düzgün istifadə edilməməsi uşaq və gənclərin bilik səviyyəsinin, analitik qabiliyyətinin, habelə yaradıcılıq, tənqidi düşüncə və problemlərin fərqli yollarla həlli bacarıqlarının zəifləməsinə, yaddaş pozuntusu və diqqət dağınıqlığına səbəb ola bilər;

- **Əqli mülkiyyət hüququ:** Generativ Sİ yaradıcı insanların üslubunu təqlid edən bir vasitəyə çevrilib. Bu sistemlər müəllif hüququ ilə qorunan mənbələr əsasında öyrədildiyindən, müəllifin razılığı olmadan onlardan istifadə edilməsi əqli mülkiyyət hüquqlarının pozulması riskini artırır. Sİ-nin yaratdığı kontentin özünün müəllifliyi və məsuliyyət məsələləri də qanunvericiliklə tənzimlənmir;



- **Ədalətli məhkəmə araşdırması və effektiv müdafiə hüququ:** Sİ-nin qərarvermə mexanizmləri bir sıra hallarda qeyri-şəffaf, qapalı ("black box" xarakterli) olduğundan, qəbul edilən qərarın əsaslandırılmasını və məntiqi izahını müəyyən etmək çətinləşir. Nəticə etibarilə, həmin qərarların qanuniliyini və əsaslılığını mübahisələndirmək, onlardan səmərəli şəkildə şikayət vermək imkanları məhdudlaşa bilər.

# RİSKLƏRİN QARŞISININ ALINMASI ÜÇÜN NƏ ETMƏLİ?

✓ İnsan nəzarətinin təmin edilməsi: Sİ sistemləri tərəfindən qəbul edilən qərarlar, xüsusilə məhkəmə, səhiyyə və sosial təminat kimi əhəmiyyətli sahələr tam avtomatlaşdırılmamalı, insan nəzarəti altında həyata keçirilməlidir. Bu həm hüquqi məsuliyyətin müəyyən edilməsi, həm də səhv qərarların qarşısının alınması baxımından vacibdir;

✓ Risklərin əvvəlcədən qiymətləndirilməsi, alqoritmik audit və monitorinq mexanizmlərinin tətbiqi: təşkilatlar Sİ sistemlərini tətbiq etməzdən əvvəl onların potensial təsirlərini, o cümlədən insan hüquqlarına mümkün müdaxilə risklərini qiymətləndirməlidirlər;

- ✓ Sİ tərəfindən yaradılan kontentin hüquqi statusu dəqiq müəyyən edilməli, məlumatların mənşəyini izləyən effektiv mexanizmlər, kontentin Sİ tərəfindən yaradıldığını müəyyən edən aşkarlama vasitələri tətbiq edilməli, qurumlar tərəfindən Sİ sistemlərinin istifadəsinə dair daxili siyasətlər işlənib hazırlanmalıdır;

- ✓ Normativ hüquqi bazanın təkmilləşdirilməsi: bu sahədə beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası, etik standartların hazırlanması və tətbiqi, habelə fərdi məlumatların, o cümlədən qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi ilə bağlı hüquqi tənzimləmələrin təkmilləşdirilməsi zəruridir;

- ✓ Rəqəmsal savadlılığın artırılması: Sİ texnologiyalarının effektiv və təhlükəsiz istifadəsi üçün rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, hədəf qrupları üzrə maarifləndirici proqramların həyata keçirilməsi vacibdir;

- ✓ Texnoloji dəyişikliklərə hazırlıq məqsədilə regionlar üzrə əmək bazarının tədqiq edilməsi, işçilərin hüquqlarının qorunmasına yönəlmiş kollektiv tədbirlər planının hazırlanması, Sİ tətbiqi nəticəsində ixtisar olunacaq və ya adaptasiya çətinliyi yaşayacaq şəxslərə dəstək mexanizmlərinin yaradılması zəruridir;

- ✓ Sİ-nin təhsilin keyfiyyətinə, bilik və bacarıqların formalaşmasına, habelə fərdin gələcək inkişafına göstərə biləcəyi təsirlər diqqətə alınmalı, bu yeni imkanlar şagird və tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsində yardımçı vasitə kimi təşviq olunmalı, tədris prosesinə nəzarət altında və məqsədyönlü şəkildə inteqrasiya edilməlidir;

- ✓ Məhkəməyədək hüquq - müdafiə mexanizmlərinin təkmilləşdirilməsi və gücləndirilməsi: Bu mexanizmlər Sİ sistemlərinin fəaliyyətinə nəzarət edərək potensial qərəz, ayrı-seçkilik və ya qeyri-qanuni müdaxilə hallarını araşdırır, sistemli problemlərin aradan qaldırılmasına töhfə verir. Beləliklə, həm preventiv, həm də reaktiv funksiyaları yerinə yetirərək süni intellektin insan hüquqlarına mənfi təsirini minimuma endirməyə xidmət edir.

## VƏTƏNDAŞLAR NƏYƏ DİQQƏT ETMƏLİDİRLƏR?

- Vətəndaşlar şəxsi məlumatlarının emalı ilə bağlı hüquqlarını bilməli və bu hüquqların həyata keçirilməsi və müdafiəsi istiqamətində aktiv mövqe nümayiş etdirməlidirlər;

- Rəqəmsal xidmətlərdən istifadə zamanı vətəndaşlar onların məlumatlarının necə və hansı məqsədlərlə istifadə olunduğu barədə aydın və şəffaf məlumat tələb etməlidirlər;
- Sİ sistemlərinin onların hüquq və vəzifələrinə təsiri barədə məlumatlı olmalı və bu sahədə biliklərini davamlı şəkildə artırmalıdırlar;
- İnternet mühitində və Sİ əsaslı platformalarda şəxsi məlumatların paylaşılması zamanı diqqətli davranmalıdırlar;
- Hüquqların pozulması hallarında müvafiq dövlət qurumlarına, o cümlədən Ombudsmana və məhkəmələrə müraciət etməlidirlər.

## BU SAHƏDƏ OMBUDSMANIN ROLU NƏDƏN İBARƏTDİR?

✓ Sİ-nin tətbiqinin insan hüquqlarına təsiri vəziyyətinin monitorinqi aparmaq;

✓ Şikayətlərin araşdırılması üzrə fəaliyyəti həyata keçirmək;

✓ Maarifləndirmə tədbirlərini təşkil etmək və məlumatverici vəsaitlər hazırlamaq;

- ✓Qanunvericiliyin təkmilləşdirilməsi üzrə zəruri işlər görmək, bu sahədə dövlət proqramlarının icrası prosesini təhlil etmək;
- ✓Hüquqlar qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.



## İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ SI ÜZRƏ MİLLİ STRATEGİYALAR

- Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli, 4060 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası";

- Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası".



## BEYNƏLXALQ STANDARTLAR

✓ 2019-cu ildə qəbul edilmiş və 2024-cü ildə yenilənmiş İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Süni İntellekt Prinsipləri" (OECD Principles on Artificial Intelligence)

✓ 24 noyabr 2021-ci ildə qəbul edilmiş UNESCO-nun "Süni İntellektin Etikası üzrə Tövsiyəsi" (Recommendation on the Ethics of Artificial Intelligence)

✓ Avropa Parlamenti və Şurasının 13 iyun 2024-cü il tarixli, 2024/1689 saylı qərarı ilə təsdiq edilmiş "Süni İntellekt Aktı" (Artificial Intelligence Act)

- ✓ Avropa Şurasının 5 sentyabr 2024-cü il tarixli "Süni İntellekt və İnsan Hüquqları, Demokratiya və Hüququn Aliliyi üzrə Çərçivə Konvensiyası" (Council of Europe Framework Convention on Artificial Intelligence and Human Rights, Democracy and the Rule of Law)

# Nəticə

Süni intellekt texnologiyalarının inteqrasiyası yalnız texnoloji deyil, həm də hüquqi və etik yanaşma tələb edir. Bu baxımdan, həm dövlət qurumları, həm özəl sektor, həm də vətəndaşlar birgə məsuliyyət daşıyaraq Sİ-nin təhlükəsiz və ədalətli tətbiqi və istifadəsini təmin etməlidirlər.

# QEYDLƏR

# BİZİMLƏ **ƏLAQƏ**

Bakı şəhəri, Üzeyir Hacıbəyli 80,
Hökumət evi, II Ala qapı

e-gov.az

apparat@ombudsman.az

916 Çağrı Mərkəzi

Qəbul günləri:

Bazar ertəsi - Cümə
saat 10:00 - 18:00

## OMBUDSMAN SOSİAL ŞƏBƏKƏLƏRDƏ

OMBUDSMAN.AZ

OMBUDSMAN.AZ

OMBUDSMAN_ AZERBAIJAN

AZ_OMBUDSMAN

OMBUDSMAN OF AZERBAIJAN

OMBUDSMAN SƏBİNƏ ƏLİYEVA

## OMBUDSMANIN REGİONAL MƏRKƏZLƏRİ

Qərb Regional Mərkəzi
AZ2000, Gəncə şəhəri, Heydər Əliyev meydanı,
inzibati bina, 1-ci mərtəbə
Tel: (022) 266 05 65

Şimal-Qərb Regional Mərkəzi
AZ5500, Şəki şəhəri, Şəki “ASAN xidmət” mərkəzi,
Zərifə Əliyeva küçəsi 104
Tel: (024) 244 01 33

Şimal Regional Mərkəzi
AZ4000, Quba şəhəri, Yusif Qasımov küç, 68,
Tel: (023) 335 15 99

Cənub Regional Mərkəzi
AZ4000, Masallı şəhəri, Heydər Əliyev prospekti,
Masallı “ASAN həyat” kompleksi.
Tel: (025) 215 19 16